# Münəvvərin parlaq gözləri



Onun gözləri çox parlaq idi. Kinoya lazım olan işığın çox hissəsini onun gözlərinin nuru ilə vermək olurdu. Elə buna görə də milli kinomuzda onun parlaq gözləri, özünəməxsus ifa tərzi və artistizmi, bir də üz cizgilərindəki maraqlı mimikalar həmişə sevgiylə xatırlanır.

Rejissor Rza Təhmasibin 1945-ci ildə çəkilişlərinə hazırlaşdığı və Azərbaycan kino tarixində ikinci dəfə müraciət olunan "Arşın mal alan" filmində Münəvvər xanım əsas obrazlardan birinə - Cahan xala obrazına dəvət aldı. Bu filmə Azərbaycan kinosunun qaymaqları - Rəşid Behbudov, Leyla Bədirbəyli, Ələkbər Hüseynzadə, İsmayıl Əfəndiyev, Fatma Mehrəliyeva, Lütfəli Abdullayev və o biri "Arşın mal alan"da olmayan Məşədi İbad roluna isə unudulmaz Mirzəağa Əliyev dəvət almışdı. O vaxtlar Münəvvər xanım opera teatrında ən yaddaqalan partiyaları ifa edirdi və sənət aləmində bu familiyanı çoxları tanıyır və sevirdi.

Münəvvər Kələntərli Cahan xalanı özünəməxsus tərzdə ifa edirdi. Film ekranlara çıxan kimi yumru qara gözləri, çatılmış qaşları və gülərkən ilahiləşən siması ilə onu tamaşaçılara sevdirdi. Mənim aləmimdə, Üzeyir bəyin yaratdığı Cahan xala məhz elə Münəvvər Kələntərlinin ifasında olan obrazdır. Kübar və sadəlövh... Münəvvər xanım bu filmdə Cahanın tənhalığını, dərdini də daxili pafosla verə bilmişdi.

Aktrisanın yaratdığı ən yaddaqalan və maraqlı obrazlardan biri də "Bəxtiyar" (digər adı "Sevimli mahnılar". Quruluşçu rejissor Lətif Səfərov) kinofilmindəki Gülzar xaladır. Filmdəki ustad sənətkarlar, o cümlədən Münəvvər Kələntərli ifa etdiyi rola o qədər məharətlə yanaşmışdı ki, bu ekran əsərində onun Sona Hacıyeva (Zəhra) ilə birlikdə yaratdığı duet yarım əsrdən artıqdır, yaddaşlarda yaşayır. Təsəvvür edin: bir-birindən fərqli iki faktura. Münəvvər xanımın iri cüssəli görkəmi və Sona Hacıyevanın arıq, cılız bədən quruluşu. İki bacı, fərqli fiziki görünüş, doğma və oxşar xarakterlər. Münəvvər xanım oynadığı Gülzar xala obrazına özünəməxsus yumor, qorxaqlıq və yeri gələndə, prinsipiallıq əlavə eləmişdi. Bacıoğlusunu sevən, onun işindən ötrü narahat olan, lakin bu narahatlığı fəlsəfi mənada dərk etməyən bir qadın obrazı idi aktrisanın imza atdığı rol. Hər kəsin yaxşı xatırladığı və dönə-dönə baxdığı komissiya qarşısındakı unudulmaz "Babam evlənir" mahnısından sonrakı təzim mərasimi. Münəvvər xanım vaxtı uzatmaq, komissiyanı razı salmaq üçün



bəlkə də saatlarla təzim etməyə hazır olduğu halda, bacısı Zəhra sanki həmişə işdə dolma bükməyə tələsmiş kimi yenə tələsir, təzim etmədən səhnəni tərk etmək istəyir və səhnədə qalan bacısının qolundan yapışaraq az qala onu çəkə-çəkə arxasınca aparır. Bu həm gülüş xatirinə, həm də xarakterin açılması üçün rejissor tərəfindən düşünülmüş priyomdur. Filmdə həmişə tamaşaçı tərəfindən sevgiylə qarşılanan bir epizod da var: bacıoğlu Ağabala Gülzar xalanın üstünə çığırır və xala bacıoğlundan ilk dəfə belə kəskin bir münasibət görərək stula çökür, sifətinə qəribə bir mimika verərək, aforizmə çevrilən bir ifadə işlədir: "Biz neyniyə bilərik, Ağabala?!"

Onun yaratdığı obrazlar ilk baxışdan bir-birinə yaxın görünür. Cahan xala ilə Gülzar xala arasında ruhi oxşarlıq var, amma bu obrazlar məhz aktrisanın bacarığı sayəsində başqalaşa bilib. Hər bir obraza bu aktrisanın ifasında fərqli münasibət var və əsas cəhət budur ki, tamaşaçı ümumiləşmiş bir Münəvvər Kələntərlini deyil, ayrılıqda "Görüş"dəki kolxoz sədri Münəvvəri, "O olmasın, bu olsun"dakı Yengəni, "Mən rəqs edəcəyəm" ("Əmək və qızılgül") filmindəki Sonanı görür və qəbul edir. "Onun böyük ürəyi"ndə kiçik bir epizodda rol oynayır Münəvvər xanım. Amma filmin lirizminin, dramatizminin içinə bircə kadrdakı replikası ilə gülüş qatır. Səksəkə içində müharibənin dəhşətlərini yaşayan qadın yataqxanasının sakinlərindən biri - gənc qız yuxusunu qarışdırır və dik atılıb hamının yuxusuna haram qataraq: "... nə olub, atırlar?" qışqıranda Münəvvər xanımın obrazı özünəməxsus sakitlik, yatmaq hərisliyi, dincəlmək arzusu ilə başını yenidən yastığın üstünə atıb narazılıqla deyir: "Yat əşşi, yox bir, uçurlar". Bu bircə kəlmə ilə epizodun ümumi aurasını dəyişməyə və tamaşaçının yadında qalmağa nail olur Münəvvər xanım.

Aktrisa bir sıra qısametrajlı filmdə də maraqlı ekran obrazları yaradıb. "Kazbek qutusu" filmində (təəssüf ki, həmin filmi televiziya ekranlarında az göstərirlər) Məmişovun (filmin qəhrəmanının) arvadını oynayır və bu filmdəki kiçik rolu ilə də əsil antipod, harınlamış məmur qadınının iç üzünü əsl sənətkarlıqla ortaya çıxarır.

Onun "Qızmar günəş altında", "Kölgələr sürünür", "Yeni il gecəsi" filmlərindəki irili-xırdalı obrazları haqqında saatlarla danışmaq və hər dəfə o filmləri seyr etdikdə aktrisanın istedadının yeni çalarlarını görmək mümkündür.

Obrazın düşdüyü komik vəziyyətin faciəsini və fəlsəfəsini açə bilmək baxımından M.Kələntərlinin bəxti gətirmişdi. O həm xarici görünüşünə, həm də daxili aləminə, şəxsi keyfiyyətlərinə görə komizmin bütün çalarlarına uyğun gəlirdi, baxmayaraq ki, opera səhnəsində "Leyli və Məcnun" kimi mürəkkəb bir operada Ana obrazını da oynamış və həmin obrazın da faciəsini tamaşaçı qarşısında canlı şəkildə yaratmışdı. Təəssüf ki, milli kinematoqraf onun ifaçılıq bacarığından yetərincə istifadə edə bilmədi. 50 illik ömründə aşağı-yuxarı 10 filmə çəkilən aktrisa onu sevənləri tez tərk etsə də, böyük sənətkar kimi yaratdığı hər bir ekran obrazı ilə milyonlarla kinosevərlərin qəlbində özünə əbədi ömür qazandı. Münəvvər Kələntərli Azərbaycan aktyor sənəti tarixində elə şəxsiyyətlərdəndir ki, hər bir nəsil onun yaradıcılığına bağlana, onu sevə və yaratdığı obrazlara dönə-dönə baxa bilər.

● Ə.QİYAS

